*Qara Qarayev – 100*

***❒ Bugünlərdə Mədəniyyət Nazirliyinin xətti ilə, "Renesans-A" Nəşriyyat evində, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, akademik Rafael Hüseynovun redaktorluğu və "Ön söz"ü ilə işıq üzü görmüş "Tofiq Bakıxanov. "Xəzər balladası" – 50. Fransada Azərbaycan baleti günləri" adlı kitab iki məsələ ilə bağlı diqqətimizi cəlb elədi. Birinci, kitabın titul səhifəsində yazılıb ki, "Böyük bəstəkar Qara Qarayevin 100 illik yubileyinə həsr olunur". Xatırladaq ki, Tofiq Bakıxanov Qara Qarayevin dərs dediyi bəstəkarlıq kursunun tanınmış nümayəndələrindən biridir. Ona görə də dahi bəstəkarın yubileyi münasibətilə ərsəyə gələn ilk nəşrlərdən biri məhz bu kitabdır.***

# Dahi bəstəkarın yubileyinə tələbəsindən kitab hədiyyəsi




Xüsusilə qeyd etmək istədiyimiz ikinci məqam isə kitabın annotasiyasında verilən fikirlərdir. Orada oxuyuruq: "2017-ci il noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirildi. Sentyabrın 14-də isə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılmışdı.

Ölkəmizin neft sənayesi və neftçilərin həyatı ilə bağlı olan bu əlamətdar hadisələrdən bir neçə ay sonra isə görkəmli bəstəkar, Xalq artisti, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanovun qələmə aldığı, Xəzər neftçilərinin həyatını Avropanın əksər ölkələrində təbliğ etmiş "Xəzər balladası"nın 50 yaşı tamam olur. Bu kitab məhz "Xəzər balladası"nın keçdiyi yol barədədir. Ən maraqlı məqam isə odur ki, qeyd olunan üç məqamın hamısı bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır".

Akademik Rafael Hüseynovun kitaba yazdığı "Tofiq Bakıxanovun Xəzər himni" adlı "Ön söz"ündə qeyd edilir ki, bir zamanlar musiqişünas professor Elmira Abbasova Tofiq Bakıxanovun "Xəzər balladası"nı "balet-novella", "balet-poema" adlandırmışdı... "Arzumdur ki, bu novella, bu poema bu şeir, bu nəğmə, bu hekayət elə beləcə hələ çox illər davam etsin".

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira xanım Qafarovanın Azərbaycan və rus dillərində tərtib etdiyi kitabda ( nəşriyyat redaktoru Səkinə Səmədova, texniki redaktoru isə Ellada Səfərəliyevadır) "Xəzər balladası"nın keçdiyi 50 ilin istənilən mərhələsi barədə tarixi fotolar, afişalar, sənədlər, rəylər, mətbuatda verilmiş yazılar barədə məlumatlar toplanmışdır. Eyni zamanda, baletin müxtəlif illərdəki quruluşçu rejissorları, aktyor və aktrisalar, ümumiyyətlə, bu əsərin tamaşaçıya təqdim edilməsində xidməti olan hər kəs barədə ətraflı məlumat almaq mümkündür. Diqqəti ən çox çəkən isə Tofiq Bakıxanovun müəllimi Qara Qarayevlə birlikdə çəkilən fotoları və baletin xarici dillərdə nəşr olunmuş proqramlarının görüntüləridir.

Kitabda Xalq şairi Süleyman Rüstəm və Sosialist Əməyi Qəhrəmanı Akif Cəfərov da daxil olmaqla çoxsaylı görkəmli insanların və sənətşünasların ürək sözlərinə rast gəlirik. Amma bu informasiyanı bəstəkarın 30 illik dostu, Əməkdar jurnalist İttifaq Mirzəbəylinin kitaba yazdığı "Xəzər balladası 50 il əvvəlki kimi bu gün də səhnədədir" adlı "Giriş"dən götürdüyümüz cümlələrlə yekunlaşdırırıq : " Le Monde" qəzetində verilmiş rəydə belə deyilirdi: "Bu əsər həqiqətən dəniz neftçilərinin həyatından bəhs edən gözəl bir himndir" . Tələbəsinin bu uğurlarını qiymətləndirən Qara Qarayev isə qürurla qeyd edirdi ki, "Paris Azərbaycan baletinin varlığını etiraf etdi".

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti",***
***Foto Rafiq SALMANOVUNDUR***